ARPA
Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası

İstiqlaliyyət küç., 31C. Bakı Azərbaycan AZ1001
Tel: (+99412) 505 00 56; (+99412) 505 53 02
info@arpa.org.az | www.arpa.org.az

**15.03.2021**
**AZ/AP/OL713**

**Azərbaycan Respublikasının**
**Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim!**

Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası (ARPA) adından Azərbaycan Respublikası Auditorlar Palatasının 25 illiyinin qeyd olunması ilə bağlı Sizi səmimi qəlbdən təbrik edirəm.

1996-cı ildən fəaliyyətə başlayan Auditorlar Palatası əsas audit məsələləri ilə bağlı Azərbaycan Respublikası Maliyyə Nazirliyinin məlumatlandırılması, Beynəlxalq Maliyyə Hesabatları Standartlarının qəbul edilməsi və istifadəsinin təbliğində, həmçinin audit və maliyyə hesabatlılığının gücləndirilməsi sahəsində səylə fəaliyyət göstərib.

25 il ərzində təşkilatın statusu əhəmiyyətli dərəcədə artmışdır. Auditorlar Palatası Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) üzvü oldu və bu Sizin fəaliyyətinizin yüksək keyfiyyətinin göstəricisidir. Palata bu müddət ərzində milli audit sisteminin yaradılmasında, şəffaflığın artırılmasında, korrupsiyaya qarşı mübarizədə, auditin inkişafında yoxlama rolunun gücləndirilməsində fəal iştirak etmişdir. Dövlət başçısı cənab İlham Əliyevin beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı verdiyi tapşırıqlara uyğun olaraq, Palata ilə bir çox ölkələr və beynəlxalq təşkilatlar, o cümlədən audit və mühasibat təşkilatları arasında əlaqələr quruldu və bu əlaqələr bu gün də uğurla davam etdirilir.

Azərbaycan Respublikası Auditorlar Palatasının uğurları Palatanın rəhbəri qismində Sizin və dəyərli kollektivinizin təşəbbüskar və səmərəli işinin təbii nəticəsidir.

29 dekabr 2015-ci ildə Azərbaycan Respublikası Auditorlar Palatası və ARPA arasında Əməkdaşlıq haqqında Saziş imzalanmışdır. Biz Sizin təşkilat ilə uzunmüddətli əməkdaşlıqdan məmmunuq və Sizə fəxrlə dost deyirik.

Hörmətli Vahid müəllim, Sizi və Palata üzvlərini bir daha bu əlamətdar ildönümü münasibətilə təbrik edir və ölkə iqtisadiyyatının inkişafı naminə işlərinizdə yeni nailiyyətlər və uğurlar arzulayıram.

**Dərin hörmətlə,**
**ARPA İdarə Heyətinin Sədri** **Günay Şahbazova**

Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası İctimai Birliyi • Azerbaijan Accountants and Risk Professionals Association Public Union • ARPA

Azərbaycan Respublikasının
Auditorlar Palatası
Daxil № 183
"16" 03. 2021 il